# XİDMƏTLƏRƏ QOŞULMA TƏKLİFİ (OFERTA MÜQAVİLƏSİ)

**BAKI - 2022**

**1. Xidmətlərə Qoşulma Təklifi (Oferta Müqaviləsi)** Bu Xidmətlərə Qoşulma Təklifi (Oferta Müqaviləsi) - ____.____.202_ -ci ildə BAKI şəhərində

(1) Bir tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş və Bakı şəhəri, Tbilisi prospekti 187 ünvanında qeydiyyatda olan "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti ("Operator")
(2) Digər tərəfdən Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq təsis edilmiş və ________________ ünvanında qeydiyyatda olan _____________ ("Sifarişçi") arasında bağlanılır.

TƏFƏRRÜATLAR:

A. Bu **Xidmətlərə Qoşulma Təklifi (Oferta Müqaviləsi)** (bundan sonra "**Təklif**") Azərbaycan Respublikası qanunvericiliyinə əsaslanır və təfsir edilir.

B. "Operator" Telekommunikasiya haqqında qanunvericiliyə uyğun olaraq fəaliyyət göstərən hüquqi şəxsdir və Azərbaycan Respublikası daxilində digər operatorlara, provayderlərə və digər şəxslərə telekommunikasiya xidmətləri təklif edə bilər.

C. "Sifarişçi" Telekommunikasiya haqqında qanunvericiliyə uyğun olaraq fəaliyyət göstərən Operator və ya Provayderdir və Azərbaycan Respublikası daxilində digər operatorlara, provayderlərə və digər şəxslərə telekommunikasiya xidmətləri təklif edə bilər.

D. Bu **Təklif** bir tərəfin digər tərəfə təklif etdiyi vasitələrin və/və ya xidmətlərin ikitərəfli razılaşdırılmış şərtlərini və qaydalarını müəyyən edir.

**2. Təklifin predmeti**

2.1. Bu **Təklifə** uyğun olaraq, "Operator" **Əlavə E**-də göstərilən xidmətləri təmin edir.

2.2. "Operator" tərəfindən təmin ediləcək bütün telekommunikasiya vasitələri və xidmətlərinin korporativ satışı bu **Təklif** əsasən tənzimlənir.

2.3. Bu Təklif hər iki tərəfin səlahiyyətli nümayəndəsi tərəfindən imzalandığı tarixdən etibarən qüvvəyə minir.

**3. Təklifin məqsədi və strukturu**

Xidmətlərə Qoşulma **Təklifi**- "Operator"un korporativ satış əsasında telekommunikasiya bazarının digər iştirakçılarına ("Sifarişçi"yə) təklif etdiyi xidmətləri özündə əks etdirən vahid Təklifdir. "Sifarişçi"nin öz müştərilərinə təqdim etdiyi xidmətlər bu Təklifdəki xidmətlərlə eynilik təşkil etdiyi halda, o cümlədən "Sifarişçi"nin müştəriləri "Operator"un istehlakçıları və ya digər korporativ müştəriləri olsa da, "Operator"la həmin müştərilər və "Sifarişçi" ilə onun müştəriləri arasındakı münasibətlər bu Təkliflə tənzimlənmir.
Bu Təklif əsas **Təklif** və **Əlavələrdən** ibarətdir.

**Əsas Təklif** xidmətlərə şamil olunan şərt və qaydalardan ibarətdir.

**Əlavələr** aşağıdakılardan ibarətdir**:**

• Anlayışlar

• Əlaqə vasitələri

• Qiymət (Tarif) siyahısı

• Operatorun xidmətlərinin siyahısı

• Hər bir fərqli xidmət üçün xidmətə xas şərtləri və prosedurları ehtiva edən ayrıca əlavə

**4.Prinsiplər**

4.1. “Operator” tərəfindən təqdim olunan vasitə və xidmətlər onun tərəfindən təqdim oluna bilən telekommunikasiya vasitə və xidmətlərinin dairəsi ilə məhdudlaşır.

4.2. “Operator” tərəfindən “Sifarişçi”yə təqdim edilən xidmətlər:

a) texniki imkanlar daxilində standart və keyfiyyətcə ən azı “Sifarişçi”nin tələbi ilə eyni və ya daha üstün olmalı; və

b) ədalətli olmalı və diskriminasiyaya əsaslanmamalıdır.

**5. Tətbiq və Emal prosedurları**

5.1. “Sifarişçi” Təklifdə müəyyən edilmiş telekommunikasiya vasitələri və xidmətlərindən istifadə etməsi üçün “Operator”a Sorğu göndərir.

5.2. Bu Sorğu “Operator”un Təklifdə müəyyən edilmiş və “Sifarişçi”nin arzu etdiyi telekommunikasiya vasitələri və xidmətlərinin təmin edilməsinə dair sorğusunu qiymətləndirmək üçün zəruri məlumatların “Operator”a təqdim edilməsi məqsədini daşıyır.

5.3. Sorğu aşağıdakı məlumatları özündə ehtiva edir:

a) “Sifarişçi”nin tam adını, hüquqi ünvanını və əlaqə vasitələrinə dair məlumatları;

b) şəbəkə vasitələrinin və ya şəbəkə xidmətlərinin dairəsini;

c) “Sifarişçi”nin “Operator”un Təklifdə göstərilmiş telekommunikasiya vasitələri və xidmətlərinə dair təklif etdiyi şərtləri qəbul etmək və ya fərqli şərtlərlə danışıqlar aparmaq istəyini ;

d) “Sifarişçi” tərəfindən tələb olunan telekommunikasiya vasitələri və xidmətlərinin təmin edilməsi tarixini (tarixlərini), habelə texniki imkanların müəyyən edilməsi məqsədilə ünvanını ;

e) “Sifarişçi”nin “Operator”la danışıqların aparılmasına dair istəyini əsaslandırdığı məlumatı (əgər varsa);

5.4. Tərəflər arasında konfidensial məlumatların qorunması haqqında qüvvədə olan müqavilə olmadıqda, “Operator” tərəfindən müəyyən edilmiş formada tərtib edilmiş konfidensial məlumatların qorunması haqqında müqavilə 2 (iki) nüsxədə imzalanması məqsədilə “Sifarişçi”yə təqdim edilir.

5.5. Müqavilə aşağıdakı məlumatları özündə ehtiva edir:

a) "Sifarişçi"nin “Operator”dan əldə etmək istədiyi telekommunikasiya vasitələrinin və/və ya xidmətin miqyası ilə bağlı ilkin məlumatlarını;

b) "Sifarişçi"nin şəbəkəsi və xidmətlərinin funksionallığı ilə əlaqədar, o cümlədən "Operator"un şəbəkəsinə təsir edə biləcək məlumatlarını ;

c) Lisenziya tələb olunan telekommunikasiya xidmətlərinə görə daha əvvəl “Operator”a təqdim olunmamış “Sifarişçi”nin mövcud lisenziyasının surətini ;

d) “Sifarişçi”nin telekommunikasiya avadanlığının interfeys standartlarına aid müvafiq texniki məlumatlarını;

e) Telekommunikasiya vasitələri və xidmətlərinin təmin olunmasına dair “Operator” tərəfindən tələb edilə biləcək digər məlumatları.

5.6. Müraciət “Operator”un müvafiq əlavədə göstərilmiş əlaqə vasitələrinə ünvanlanmalıdır.

5.7. 5.3-cü maddənin “e” bəndinin təmin edilməsi məqsədilə, “Operator” sorğunu qəbul etdikdən 30 (otuz) iş günü ərzində “Sifarişçi”ni Təklifdə müəyyən edilməyən aşağıda qeyd edilən məlumatlarla təmin etməlidir:

a) Telekommunikasiya vasitələri və ya xidmətlərinin təmin edilməsi məqsədilə müraciət etmək üçün “Sifarişçi” tərəfindən doldurulması tələb olunan ərizə formaları;

b) “Operator”un Təklifdə nəzardə tutulmayan xidmətin təmin ediləcəyi dövrlər barədə məlumatların “Sifarişçi”nin Sorğusuna əsasən təqdimatı;

c) “Operator”un Təklifə daxil edilməyən və Sorğunun predmeti ola bilən telekommunikasiya vasitələri və/və ya xidmətlərə dair alternativ keyfiyyət hədəfləri barədə məlumatlar Sorğuya əsasən təqdim oluna bilər.

5.6. “Operator” Sorğunu aldıqdan sonra ən geci 30 (otuz) iş günü ərzində Sorğunu qəbul etdiyi barədə “Sifarişçi”yə yazılı məlumat verməlidir; və

a) əlavə məlumat tələb olunarsa, Sorğunu cavablandırmadan əvvəl “Sifarişçi”dən əlavə məlumat tələb edir; yaxud

b) Təklifdəgöstərilən təklif şərtlərinə uyğun olaraq telekommunikasiya vasitələrinə və ya xidmətlərə çıxışı təmin etməyə texniki imkanların olub-olmadığını və ya “Sifarişçi”nin fərqli şərtlərlə danışıqlar aparmaq istədiyi halda, belə şərtlərin Tərəflər arasında yazılı şəkildə qarşılıqlı razılaşdırılacağı göstərilir.

5.7. Sorğunun daxil olduğu tarixdən etibarən 20 (iyirmi) iş günü ərzində ”Sifarişçi” tərəfindən əlavə məlumat təqdim edildiyi təqdirdə, “Operator” müvafiq əlavə məlumat(lar)ı aldıqdan sonra 5.6-cı bəndə uyğun olaraq Sorğunu yenidən nəzərdən keçirir.

5.8. “Operator” telekommunikasiya vasitələrinin və ya xidmətlərinin təmin edilməsindən və göndərilən Sorğunun qəbul edilməsindən aşağıdakı səbəblərin hər hansı birinə görə imtina edə bilər:

a) "Sifarişçi"nin Sorğuya daxil etdiyi məlumatların düzgün olmaması, habelə Sorğunun vicdanla ("bona fide" - aldatmaq məqsədi olmadan) tərtib edilməməsi aşkar edilərsə və ya bu barədə əsaslı şübhələr yaranarsa,

b) Sorğu “Operator” tərəfindən 5.5-ci bənd üzrə əsaslı surətdə tələb olunan hər hansı zəruri məlumatı ehtiva etmirsə və həmin məlumatlar “Sifarişçi”dən tələb edildiyi tarixdən 20 (iyirmi) iş günü müddətində əldə edilməmişdirsə,

c) tələb olunan şəbəkə vasitələrinə və/yaxud şəbəkə xidmətlərinə çıxışı təmin etmək texniki cəhətdən mümkün deyilsə (texniki imkanların olmaması);

d) “Operator”un tələb olunan şəbəkə vasitələrini və/və ya şəbəkə xidmətlərini təmin etmək üçün kifayət qədər tutumu və ya yeri (həcm) yoxdursa;

e) “Sifarişçi”nin müvafiq xidmətin və vasitələrin təmin edilməsi üçün vaxtında ödəniş edə bilməyəcəyinə dair ağlabatan əsaslar müəyyən edilərsə və ya mövcud xidmətin və vasitələrin təmin edilməsinə görə 2 aydan artıq müddətə borcu (Təklifə daxil və daxil olmayan xidmətlər üzrə) yaranarsa;

f) Telekommunikasiya vasitələrinin və/və ya xidmətlərinin təmin edilməsi, o cümlədən vasitə və xidmətlər ilə bağlı problemlərin həll edilməsi təhlükəsizlik qaydalarına görə qeyri-mümkün olarsa;

g) “Sifarişçi”nin bu Təklifə və telekommunikasiya vasitələrinin və/və ya xidmətlərinin təmin edilməsinə tətbiq edilən şərtlərə ciddi formada əməl edə bilməyəcəyinə dair ağlabatan əsaslar mövcuddursa; yaxud

h) Milli maraqlara uyğun olaraq (və ya hüquq-mühafizə orqanlarının tələblərinə əsasən) “Sifarişçi”yə giriş verilməsindən “Operator”un imtina etməsi üçün əsaslar mövcuddursa.

5.9. “Operator” Təklif şərtlərinə uyğun olaraq müraciət edilən telekommunikasiya vasitələrinə və/və ya xidmətlərinə girişi təmin etməyə razılaşmadıqda, sorğudan imtina barədə qərar qəbul edir. Sorğuya və təqdim olunan əlavə məlumata əsasən imtina barədə qərar qəbul edildikdən sonra 15 (on beş) iş günü ərzində“Operator” “Sifarişçi”ni yazılı şəkildə xəbərdar etməlidir.

5.10. “Operator” Təklif şərtlərinə uyğun olaraq müraciət edilən telekommunikasiya vasitələrinə və/və ya xidmətlərinə girişi təmin etməyə razılaşdıqda “Sifarişçi” ilə Müqavilə bağlanması barədə qərar qəbul edir. “Operator” bu qərardan sonra 15 (on beş) iş günü ərzində Təklifin 2 (iki) nüsxəsini və ya mövcud müqavilə olduğu təqdirdə, Təklifə əlavə olaraq Əlavənin 2 (iki) nüsxəsini “Sifarişçi”yə təqdim edir.

## 6. Xidmət şərtləri

6.1.“Sifarişçi” “Operator”un telekommunikasiya vasitələri və xidmətlərindən və digər əlaqəli vasitələrdən hər hansı qeyri-qanuni və ya qeyri-etik məqsədlər üçün istifadə etməməlidir.

6.2.“Sifarişçi” “Operator”un telekommunikasiya şəbəkəsinə müdaxilə edən və ya mənfi təsir göstərə bilən qurğulardan istifadə etməməlidir. Bundan əlavə “Sifarişçi” “Operator”un telekommunikasiya şəbəkəsinin istismarını, bütövlüyünü, fasiləsizliyini, qarşılıqlı bağlantısını, informasiya mühafizəsini, radioelektron vasitələrinin elektromaqnit uyğunluğunu təhlükə altına qoyan, habelə digər subyektlər üçün telekommunikasiya xidmətlərinin göstərilməsini çətinləşdirən, yaxud qeyri-mümkün edən əməllərə yol verməmək, qeyri-standart avadanlıqlardan istifadə etməmək və qanunvericiliklə müəyyən edilmiş standartlara, eləcə də digər tələblərə uyğun olmayan son avadanlıq qoşmamağı öhdəsinə götürür.

6.3. "Sifarişçi" giriş üçün parametrlərinin təhlükəsizliyinə və alınan xidmət kanalından icazəsiz istifadə nəticəsində dəyən ziyana görə tam məsuliyyət daşıyır. “Operator”un təqsiri ilə dəyən zərər istisna olmaqla, “Sifarişçi” üçüncü şəxslər tərəfindən icazəsiz istifadə nəticəsində “Sifarişçi”nin hesabından və onun səhifəsindən “Operator”a məxsus məlumatların qanunsuz istifadəsi nəticəsində dəymiş ziyana görə məsuliyyət daşıyır. “Operator” onun iradəsindən asılı olmayan səbəblərdən, zəruri preventiv tədbirləri həyata keçirməsinə baxmayaraq üçüncü şəxslər tərəfindən “Sifarişçi”yə məxsus məlumatların qeyri-qanuni formada əldə edilməsinə görə məsuliyyət daşımır.

## 7. Qiymət və ödəniş şərtləri

7.1. Müqavilə imzalandıqdan sonra müvafiq Protokol(lar)da göstərilən aylıq ödənişlə bağlı olmayan xidmət haqqı 10 (on) iş günü ərizində “Sifarişçi” tərəfindən ödənilməlidir.

7.2. Azərbaycan Respublikası ərazisində makroiqtisadi şəraitdə əhəmiyyətli dəyişikliklər olarsa, o cümlədən valyuta məzənnələri 10%-dən çox dəyişərsə, beynəlxalq və yerli faiz dərəcələrində əhəmiyyətli dəyişikliklər baş verərsə, yerli vergi sistemində, “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununda, “Aztelekom” MMC-nin daxili əmri ilə təsdiq edilmiş tariflərində və ya Azərbaycan Respublikasının telekommunikasiya sahəsində müvafiq normativ hüquqi aktlarında dəyişikliklər olarsa, “Operator” 30 (otuz) təqvim günü əvvəl “Sifarişçi”yə yazılı bildiriş verməklə hər hansı Xidmət üçün xidmət haqqının birtərəfli qaydada dəyişdirilməsinin hüququnu özündə saxlayır. “Sifarişçi” yazılı bildiriş ona təqdim edildiyi tarixdən etibarən 10 (on) iş günü ərzində yazılı şəkildə etiraz etmədikdə, qeyd olunan dəyişikliklər onun tərəfindən qəbul edilmiş hesab edilir.

7.3. Aylıq xidmət haqqının hesablanması Tərəflərin Təklifin ayrılmaz hissəsi olan və Xidmətin hazır olduğunu təsdiq edən Qəbul aktının imzalanmasından sonra başlanır.

7.4. “Sifarişçi” Qəbul aktını qəbul etdiyi tarixdən etibarən 1 (bir) iş günü ərzində imzalamalı və “Operator”a təqdim etməlidir.

7.5. Aylıq ödəmə üçün “Operator” cari ayın 10-na (onuna) qədər “Sifarişçi”yə hesab-faktura təqdim edir, cari ayın 25-nə (iyirmi beşinə) qədər “Sifarişçi” tərəfindən ödəniş edilmədiyi təqdirdə “Operator” xidmətin göstərilməsini dayandırmaq və növbəti ayın 1-i (biri) müqaviləyə xitam vermək hüququnu özündə saxlayır. Müqaviləyə xitam verilməsi “Sifarişçi”ni icra edilməmiş ödəniş öhdəliklərindən azad etmir.

7.6. Sifarişçi tərəfindən ödəniş gecikdirilərsə, “Operator” “Sifarişçi”dən hər gecikdirilən günə görə ümumi faktura məbləğinin 0.1 (sıfır tam onda bir) faizi miqdarında cərimə tələb etmək hüququna malikdir.

## 8. Vurulmuş zərərə görə məsuliyyət və təzminat

8.1. Bu bənd bir Tərəfin digər Tərəf qarşısında bu Təklifin icrası ilə əlaqədar hər hansı hərəkət, hərəkətsizlik və ya hadisə ilə bağlı məsuliyyətini (qəsdən və ya ehtiyatsızlıqdan pozma və ya hər hansı digər səbəbə görə) tənzimləyir.

8.2 **Sığorta.** Hər bir Tərəfin bu Təklifə əsasən bağlanmış Müqavilənin digər müddəaları ilə tənzimlənən məsuliyyət və öhdəliklərini məhdudlaşdırmadan və ya azaltmadan, hər bir Tərəf bu Təklif və onun əsasında bağlanılmış Müqavilənin

qüvvədə olduğu müddət ərzində öz mülki hüquqi məsuliyyətlərini sığortalayır, o cümlədən bu Müqavilənin əhatə etdiyi iş üzrə və ya onunla əlaqədar işləyən işçilərinə əmək haqqının ödənilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş məhdudiyyətlərlə işsizlikdən sığorta və/və ya məcburi sosial sığorta və/və ya işəgötürənin məsuliyyətinin sığortası və/və ya digər növ icbari sığortalar həyata keçirilməlidir

8.3 **Mülkiyyətə dəyən ziyan.** Tərəflərdən hər hansı biri ("zərər vuran Tərəf") onun işçilərinin və ya nümayəndələrinin hər hansı bir hərəkəti və ya hərəkətsizliyindən yaranan zərər, məhv və ya itki nəticəsində və ya işin yerinə yetirilməsi zamanı hər hansı əmlakın zədələnməsi, məhv edilməsi və ya itirilməsi ilə bağlı digər tərəfə dəymiş bütün zərərləri kompensasiya edəcək və digər Tərəfin əmlakını təhlükəsiz şəraitdə saxlayacaqdır.

8.4. **Ölüm və sağlamlığa dəymiş zərər.** 8.9-cu bəndi nəzərə almaqla, öhdəliklərini yerinə yetirməyən Tərəf, onun qulluqçularının və ya agentinin hər hansı hərəkəti və ya hərəkətsizliyi səbəbilə digər Tərəfin hər hansı və bütün işçilərinin ölümü də daxil olmaqla, bütün zərərlərinə, məsrəflərinə və iddialarına görə tam məsuliyyət daşıyır və bununla da digər Tərəfə bütün xərclər, məsrəflər və iddialara görə kompensasiya ödəyir.

8.5. **Üçüncü şəxslərə münasibətdə kompensasiya.** 8.9-cu bəndi nəzərə almaqla, aşağıdakı hallarda öhdəliklərini yerinə yetirməyən Tərəf bütün xərclər və iddialarla bağlı digər Tərəfə dəymiş zərərin əvəzini ödəyəcək və onu təhlükəsizliyini təmin edəcəkdir:

a) bütün xəsarətlər, o cümlədən ölüm; və/və ya

b) öhdəliyi yerinə yetirməyən Tərəfin hüquq pozuntusu nəticəsində və ya öhdəliklərini yerinə yetirməyən Tərəfin, onun işçilərinin və/və ya nümayəndələrinin hər hansı hərəkəti, hərəkətsizliyi və ya onunla əlaqədar digər işlərin görülməsində və ya telekommunikasiya xidmətlərinin təmin edilməməsi nəticəsində üçüncü şəxslərin əmlakının itirilməsi və ya zədələnməsi.

8.6. **Məsuliyyət.** Tərəflərdən heç birinin onların işçilərinin və nümayəndələrinin ehtiyatsızlığı ilə bağlı baş vermiş ölüm və ya xəsarət hadisəsi ilə əlaqədar dəymiş zərərə görə məsuliyyəti istisna olunmur.

8.7. 8.5-ci bənd nəzərə alınmaqla, aşağıdakı hallarla məhdudlaşmayan əsaslarla, Tərəf digər Tərəfin üçüncü şəxslərə vurduğu zərərə görə məsuliyyət daşımır, o cümlədən üçüncü şəxsin digər Tərəfə qarşı irəli sürdüyü iddialar üzrə birgə cavabdeh kimi cəlb oluna bilməz:

a) girişdə, əlaqə ötürülməsində və digər xidmətlə əlaqədar gecikmələr, itkilər və ya kəsilmələr; və

b) digər Tərəflə müqavilə münasibətlərinə əsasən hər hansı şəxs tərəfindən digər Tərəfə qarşı irəli sürülən və ya edilən hər hansı iddialar və ya hərəkətlər.

8.8. 8.3 və 8.5-ci bəndlərlə yanaşı, üçüncü şəxslər (Tərəfin işçiləri, nümayəndələri, podratçıları və onun nəzarəti altında olan digər şəxslərdən başqa) tərəfindən tərtib olunan proqramlar və zərərli kodlar vasitəsilə məlumatlara qanunsuz müdaxilə nəticəsində dəymiş zərərə görə Tərəf istifadəçini təhlükəsizlik vasitələri və anti-virus həlləri ilə təmin etdiyi təqdirdə məsuliyyət daşımır.

8.9. Heç bir halda Tərəflərdən birinin bu Müqavilə üzrə öhdəliyi yalnız müvafiq müqavilə ilə bağlı hər hansı qəza və ya baş vermiş hadisə üzrə müstəqil ekspertin (mütəxəssis) rəyi əsasında müəyyən edilmiş zərər məbləğindən çox olmayacaq. Bu müddəa 8.5-ci bənddə müəyyən edilmiş hallarda əmlaka dəyən ziyana və/və ya dələduzluğa şamil edilmir.

8.10**. Zəmanətin istisna edilməsi**. Bu Təklifdə açıq şəkildə qeyd olunan hallar istisna olmaqla, bütün ifadələr, şərtlər və zəmanətlər (açıq və ya nəzərdə tutulan, qanuni və ya başqa şəkildə), o cümlədən, bununla məhdudlaşmayaraq, satış qabiliyyətinə dair hər hansı zəmanəti, müəyyən məqsəd üçün uyğunluq zəmanəti, Tərəflərdən hər hansı birinin təqdim etdiyi hər hansı xidmətə münasibətdə sövdələşmə, adət və ya ticarətdən istifadə nəticəsində yaranan pozuntu və nəzərdə tutulan zəmanət açıq şəkildə pislənir və istisna edilir. Bu Təklifdə nəzərdə tutulan zəmanət hər bir Tərəfin verdiyi yeganə zəmanətdir və zəmanəti verən Tərəfin razılığı olmadan genişləndirilməyəcək və ya azaldılmayacaq.

8.11. Heç bir Tərəf digər Tərəf və ya üçüncü şəxs qarşısında dolayı əldən çıxmış gəlirə, məlumatların qanunsuz istifadəsinə və/və ya Müqavilə şərtlərinin dolayı, təsadüfi pozulmasına və/və ya digər hüquq pozuntusuna, bu Müqavilənin xitamına və ya ləğvinə, habelə digər qabaqcadan müəyyən edilməsi, görülməsi qeyri-mümkün olan hallara görə məsuliyyət daşımır

**9. Təklifin müddəti və ləğvi**

9.1. Bu Təklif 16.6-cı **bənddə** göstərilən tarixdən qüvvəyə minir və 1 (bir) il müddətində qüvvədə qalır.

9.2. Əgər Tərəflərdən biri Təklif müddətinin bitməsinə 30 (otuz) təqvim günü qalmış Təklifin ləğvi ilə bağlı yazılı müraciət etməzsə, Təklifin müddəti avtomatik olaraq növbəti 1 (bir) il müddətinə uzadılacaqdır.

9.3. Bu Təklif aşağıdakı hallarda ləğv edilə bilər:

9.3.1. Tərəflərdən biri Təklifin şərtlərini davamlı (iki və ya daha çox halda) və ciddi şəkildə pozduqda, digər Tərəfin yazılı bildirişi ilə dərhal;

9.3.2. Fors-major hal baş verdikdən sonra 3 (üç) aydan artıq davam edərsə;

9.3.3 Tərəflərdən biri qarşı tərəfə 30 (otuz) təqvim gün əvvəlcədən yazılı xəbərdarlıq etmək şərti ilə;

9.3.4 Bu Təklif və qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

**10. Dayandırma**

10.1. Aşağıdakı hallarda “Operator” heç bir məsuliyyət daşımadan öz avadanlıq və/yaxud xidmətlərinə girişi bu hallar aradan qalxana qədər dayandıra bilər:

a) “Sifarişçi” bu Təklif üzrə (aradan qaldırıla bilən) öhdəliyin pozuntusunu “Operator”dan pozuntu barədə bildiriş aldıqdan sonra 30 (otuz) təqvim günü ərzində aradan qaldıra bilmədikdə (bu Təklif və onun əsasında bağlanılmış müqaviləyə uyğun olaraq Hesab-fakturaların ödənilməməsi daxil olmaqla);

b) “Sifarişçi” “Operator”a və ya bu Təklifə və ya telekommunikasiya vasitələrinin və/və ya xidmətlərinin təqdim edilməsinə əhəmiyyətli mənfi təsir göstərən hər hansı qanunların, qaydaların, şərtlərin və ya telekommunikasiya vasitələrindən istifadə standartlarının pozulması halını pozuntu barədə bildiriş aldıqdan sonra 30 (otuz) təqvim günü ərzində aradan qaldıra bilmədikdə;

c) “Sifarişçi” şəbəkə vasitələrinin “Operator”un şəbəkəsinin normal fəaliyyətinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərməsinə səbəb olan və ya hər hansı bir şəxsin həyat və sağlamlığına təhlükə yaradan hər hansı nasazlığı və ya həll edilə bilən vəziyyəti aradan qaldıra bilmədikdə;

d) “Sifarişçi” “Operator”un, onun işçilərinin və ya podratçılarının həyatı və ya əmlakı üçün bilavasitə təhlükə yaradan, “Sifarişçi”nin şəbəkə imkanlarına və ya şəbəkə xidmətinin təchizatında nasazlığa səbəb olan hər hansı vəziyyəti (həll edilə bilən) aradan qaldıra bilmədikdə;

e) “Sifarişçi” “Operator”un və ya digər şəxsin şəbəkə qurğularına maddi, fiziki və ya texniki ziyan vurduqda və “Sifarişçi”nin şəbəkə qurğularında yaranmış nasazlığı və ya digər mənfi halı (həll edilə bilən) aradan qaldıra bilmədikdə; və ya

f) fors-major hallar baş verərsə.

10.2. Bu Təklifin 10.1-ci bəndində göstərilən hadisələr baş verdikdə, “Operator” telekommunikasiya vasitələrinə və/və ya xidmətlərinə çıxışın dayandırılması barədə bildiriş verməklə xidmətlərin təminatını dayandıra bilər və dayandırma “Operator”un telekommunikasiya vasitələrinə və/və ya xidmətlərinə çıxışın dayandırılmasına dair bildirişin şərtlərinə uyğun olaraq həyata keçiriləcək.

10.3. Dayandırılma müddəti ərzində “Operator” telekommunikasiya vasitələrinə və/yaxud xidmətlərə münasibətdə bütün sabit dövri ödənişləri “Sifarişçi”dən tələb etmək hüququna malikdir. Dayandırılma fors-major halları ilə bağlı olduqda, xidmətlərə görə sabit dövri ödənişlər tutulmayacaq. “Sifarişçi”nin dayandırma müddəti ərzində məruz qaldığı itki, məsrəf, zərər və ya xərclər üçün yalnız “Sifarişçi” məsuliyyət daşıyır.

## 11. Fors-major

11.1.Hər hansı Tərəfin bu Təklif üzrə öhdəliklərini yerinə yetirməməsi fors-major halları nəticəsində baş verdiyi halda bu Təklifin şərtlərinin pozulması hesab edilmir.

11.2. Fors-major, onun təsirinə məruz qalmış Tərəfin nəzarəti xaricində olan və lazımi diqqət və ehtiyatlılıq göstərilməsi ilə qarşısı alına bilməyən və ya gözlənilməsi mümkün olmayan halları, o cümlədən, təbii fəlakət, qlobal pandemiya, dini ekstremizm, müharibə və iğtişaşları ehtiva edir.

11.3. Bu Təklifdə göstərilən öhdəliklərini fors-major halları nəticəsində icra edə bilməyən Tərəf digər Tərəfə bu barədə dərhal bildiriş verməlidir və tez bir vaxtda öz öhdəliklərinin icrasını davam etdirmək məqsədilə qarşısıalınmaz qüvvənin təsirini dayandırmaq və ya azaltmaq üçün bütün zəruri tədbirləri görməlidir.

11.4. Tərəflərin iradəsindən asılı olmayan digər fors-major hallar baş verdikdə tərəflər Təklif şərtlərini yerinə yetirə bilmədiklərinə görə qarşısında məsuliyyət daşımır. Fors-major halı baş verdikdə tərəflər biri digərini 10 (on) təqvim gün müddətində məlumatlandırmalıdır.

## 12. Mübahisələrin həlli

12.1. Bu Təklifdən irəli gələn mübahisələrin həlli zamanı Azərbaycan Respublikasının qanunları tətbiq edilir.

12.2. Bu Təklifdən irəli gələn hər hansı məsələ ilə bağlı Tərəflər arasında yaranan mübahisə ilk növbədə bu Təklifə uyğun olaraq Tərəflər arasında vicdanlı (“bonafide” – aldatmaq niyyəti olmadan) danışıqlar yolu ilə həll olunmağa çalışılacaqdır.

12.3. Mübahisə edən Tərəf digər Tərəfə yazılı məlumat verməli və öz aralarında olan mübahisəni vicdanla həll etməyə çalışmalıdır.

12.4. Tərəflər razılaşırlar ki, bu Təklifdən irəli gələn və ya bu Təklifin icrası ilə əlaqədar yaranan və Tərəflər arasında danışıqlar yolu ilə həll edilə bilməyən bütün mübahisələr Azərbaycan Respublikasının müvafiq məhkəmə orqanları tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll ediləcəkdir.

## 13. Məxfilik

13.1. Bu Təklifin icra edilməsi ilə əlaqədar zəruri olan hallar istisna olmaqla, Tərəflər bu Təklif ilə bağlı heç bir gizli məlumatı üçüncü tərəfə açıqlamamalı və onu məxfi saxlamalıdılar. Bu bəndin müddəaları bu Təklif qüvvədən düşdükdən sonra da qüvvədə qalacaqdır.

13.2. Tərəflər belə məlumatları qanunvericiliyə müvafiq olaraq dövlət orqanının rəsmi tələbinə əsasən açıqlaya bilər.

## 14. Məsuliyyət (Təklif şərtlərinin vicdanla icra edilməsinə görə)

14.1. Tərəflər Təklifdən irəli gələn öhdəliklərini tam və ya qismən yerinə yetirməməyə, hərəkəti və ya hərəkətsizliyinə görə və digər Tərəfə vurduğu birbaşa zərərə görə məsuliyyət daşıyırlar və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində nəzərdə tutulduğu qaydada həmin itki və zərərlərin əvəzini ödəyirlər.

14.2. Təklifin heç bir müddəası bu Təklif üzrə hər hansı bir öhdəliyin icra edilməməsi və ya edilə bilməməsi səbəbindən dəymiş zərərin əvəzini ödəyən Tərəfin bu Təklif üzrə digər öhdəliklərinin icrasından azad edilməsini nəzərdə tutmur.

## 15. Bildirişlər

15.1. Tərəflərin bu Təklifə əsasən bir birinə təqdim etdiyi bütün bildirişlər yazılı şəkildə, azərbaycan dilində olmalı, və müvafiq Tərəfin bu Təklifdə göstərilmiş ünvanına şəxsən, sifarişli məktubla və ya poçt vasitəsi ilə göndərilməlidir. Hər hansı bildiriş onun bu maddəyə əsasən qəbul edilməsi təsdiq edildyi tarixdən etibarlı sayılır.

## 16. Ümumi şərtlər

16.1. **Təklifin tamlığı.** Bu Təklif, onun predmetinə aid Tərəflər arasında yeganə razılaşmadır və hər hansı yazılı və ya şifahi razılaşmaları əvəz edir.

16.2. Bu Təklif 2 (iki) orijinal nüsxədə - ingilis və azərbaycan dillərində tərtib edilmişdir. Mətnlər arasında ziddiyyət olarsa, azərbaycan dilində olan mətn üstün hüquqi qüvvəyə malik olacaqdır.

16.3. Tərəflərdən heç biri bu Təklif üzrə hüquq və öhdəliklərini digər tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə ötürə bilməz.

16.4. Təklif və onun əsasında bağlanılmış müqaviləyə istənilən dəyişiklik və əlavələr Tərəflərin yazılı razılığı ilə mümkündür və belə razılaşma Təklif əlavə şəklində edilməlidir.

16.5. Bu Təklif Tərəflərin hüquqi varislərinə və Təklifin icrası tapşırılan digər hüquqi şəxslərə də şamil edilir.

16.6. Bu Təklif imzalandığı tarixdən qüvvəyə minir, xidmət üzrə hesablaşmalar xidmətin istismara verilməsi tarixini təsdiq edən Akt əsasında müəyyən edilir.

16.7. "Operator" Təklif üzrə öhdəliklərinin icrası ilə bağlı subpodratçılar (subkontraktor) cəlb edə bilər. Subpodratçıların cəlb edilməsi Təklif üzrə öhdəliklərin icra edilməsi ilə bağlı "Operator"un "Sifarişçi" qarşısında məsuliyyətinin subpodratçılara keçməsini ifadə etmir. "Operator" öhdəliklərin bir hissəsini subpodratçı vasitəsilə icra edəcəyi təqdirdə, cəlb olunacaq subpodratçılar icra ediləcək xidmətlər haqqında məlumatı yazılı şəkildə Sifarişçi ilə razılaşdırılmağı öz öhdəsinə götürür.

Tərəflər Təklifin və onun Əlavələrdəki şərtlərini və müddəalarını qəbul edirlər.

| | |
|---|---|
| "Operator"un adından imzaladı | "Sifariçşi"nin adından imzaladı |
| "AZTELEKOM" MMC | ________________________________ |
| Adı | Adı |
| Vəzifəsi | Vəzifəsi |
| Tarix | Tarix |

AZTELEKOM

**ƏLAVƏ A: Terminlər və anlayışlar**

(a) Təklif – “Operator” tərəfindən təklif olunan xidmətə qoşulma şərtlərini özündə təsbit edən Azərbaycan Respublikasının “Telekommunikasiya haqqında” qanununa və digər normativ hüquqi aktllara uyğun formada tərtib olunan, texnoloji yeniliklər, müvafiq ictimai münasibətlərin inkişafı və digər oxşar səbəblərdən şərtləri vaxtaşırı dəyişən sənəddir.

(b) **“Operator”** – Azərbaycan Respublikasının “Telekommunikasiya haqqında” qanununa əsasən ölkə ərazisində mülkiyyətində olan telekommunikasiya şəbəkəsi vasitəsilə qanuni əsaslarla telekommunikasiya xidmətləri göstərən hüquqi şəxs.

(c) **“Sorğu”** – “Sifarişçi” tərəfindən “Operator”a ünvanlanmış telekommunikasiya vasitələri və xidmətlərinin əldə edilməsi məqsədilə edilən müraciət.

(d) **“Sifarişçi”** – telekommunikasiya vasitələri və xidmətlərinin əldə edilməsi məqsədilə yazılı formada müraciət etmiş, habelə bu Təklif ilə telekommunikasiya vasitələri və xidmətlərinə giriş əldə edən telekommunikasiya xidmətləri göstərən qurum, müəssisə, təşkilat və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs.

(e) **“Telekommunikasiya vasitələri”** – telekommunikasiya məqsədləri üçün istifadə edilən şəbəkə, infrastruktur və tikili (konstruksiya).

(f) **“Telekommunikasiya xidmətləri”** – telekommunikasiya şəbəkəsi və infrastrukturu vasitəsilə təmin olunan xidmətlər.

(g) **“Avadanlıq”** – telekommunikasiya şəbəkəsinə daxil olan hər hansı bir aparat, proqram təminatı.

(h) **“Ethernet Port”** – “Operator”un telekommunikasiya avadanlığında yerləşən interfeys.

(i) **“Qarşısıalınmaz qüvvə”** – "Operator" və "Sifarişçi" tərəfindən nəzarət edilməyən, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr başa düşülür: müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, epizootiyalar, pandemiyalar (Covid-19 pandemiyası da daxil olmaqla), karantinlər, embarqolar, internet xidmət provayderinin şəbəkəsinin məhv olması, dövlət və hökumət qərarları və bu kimi digər hallar

(j) **“Qəza vəziyyəti”** – “Operator”un avadanlığı, şəbəkələri, mühəndislik sistemləri və infrastrukturunun nasazlığı səbəbindən xidmət göstərilməsinin mümkünsüzlüyü.

(k) **“Hadisə”** – “Operator”dan asılı olmayan müxtəlif səbəblərdən xidmətin mümkünsüzlüyünə səbəb olan hal.

(l) **“Sifarişçi”nin qəza vəziyyəti haqqında sorğusu”** – “Operator”un rəsmi e-poçt ünvanları və yaxud müvafiq xidmətinin telefon nömrələri vasitəsilə təqdim olunan xidmətin mümkünsüzlüyü haqqında “Sifarişçi”nin müraciəti.

(m) **“Planlaşdırılmış texniki xidmət işləri”** – “Operator”un avadanlığı, şəbəkələri, mühəndislik sistemləri və infrastrukturunun işlək vəziyyətdə saxlanılması üçün profilaktik tədbirlər.

(n) **“Təcili iş”** – müxtəlif qəzaların və “Operator”un avadanlığı, şəbəkələri, mühəndislik sistemləri və infrastrukturunun nasazlıqlarının aradan qaldırılması və ya qarşısının alınması üçün lazımi qaydada yerinə yetirilməsi tələb edilən, planlaşdırılmayan işlər.

(o) **“Nasazlıq”** - xidmət göstərilməsi zamanı xidmətin yerinə yetirilməsinin mümkün olmaması və ya zəmanət verilmiş keyfiyyət göstəricilərinə uyğun gəlməməsi.

**ƏLAVƏ B: Əlaqələr**

“Operator”un əlaqə məlumatları:

“Operator”un əlaqəli şəxsinin

| | |
|---|---|
| Adı: | Emin Əlibəyli |
| Telefon nömrəsi: | 012 344 00 00 (1411) |
| Poçt ünvanı: | Tbilisi prospekti 107, Bakı şəhəri, Azərbaycan |
| Elektron poçt ünvanı: | emin.alibayli@aztelekom.az |

**ƏLAVƏ C: Qiymətlər və ödənişlər**

Təklifdə Qiymətlər və ödənişlərin cədvəli:

| Xidmətin adı | Xidmətin növü | OTC | Aylıq haqq (azn) |
|---|---|---|---|
| DLLS | DWDM: 10 Gbps | | 2750 |
| Ethernet Port | MPLS: 10 Mbps | | 365 |
| Ethernet Port | MPLS: 100 Mbps | | 495 |
| Ethernet Port | MPLS: 1 Gbps | | 910 |
| Ethernet Port | MPLS: 10 Gbps | | 2270 |
| Ethernet Port | MPLS: 100 Gbps | | 2750 |
| Avadanlığın yerləşdirilməsi | kubmetr [m3]<br><br>[ 1 m3 ] | | 315 |
| Avadanlığın yerləşdirilməsi | kubmetr [m3] 1 m3 > dən yuxarı hər 0.5 m3 görə<br><br>[1 m3 >] | | + 165 |

Ümumi qiymətlər və ödənişlərlə bağlı ümumi qeydlər:

(a) Xidmətlər “Operator”un xidmət göstərdiyi yerlər ilə məhdudlaşır

(b) Bütün xidmətlərin təminatı “Operator”un imkanlarından asılıdır.

(c) “Sifarişçi”nin xüsusi tələbləri hər bir halda “Operator“ tərəfindən qiymətləndirilir.

**ƏLAVƏ D: Formalar**

**D.1 Müraciət forması**

FORMA F.1

MÜRACİƏT FORMASI

Aztelekom MMC-nin Xidmətlərə Qoşulma Təklifi

Versiya Nömrəsi: 1.0

Tarix: 1 avqust, 2022-ci il

1. SİFARİŞÇİNİN MƏLUMATLARI

(a) Şirkətin adı və VÖEN-i:

(b) Hüquqi ünvanı:

(c) Telefon nömrəsi:

(d) Sahib olduğu lisenziya və icazələr:

(e) Göstərdiyi telekommunikasiya xidmətləri:

2. SİFARİŞÇİNİN ƏLAQƏLİ ŞƏXSLƏRİNİN MƏLUMATLARI

(a)Əlaqəli şəxsin adı: ______________________________________________

(b)Vəzifəsi: ______________________________________________________

(c) Telefon nömrəsi: ______________________________________________

(d) Faks nömrəsi: ________________________________________________

(e) Elektron poçt ünvanı: __________________________________________

*Əlaqəli şəxs Sifarişçinin İcra orqanı adından öhdəlik müəyyənedici təqdimatlar, güzəştlər etmək və təkliflər qəbul etmək səlahiyyətinə malikdir.

3. SORĞU EDİLƏN VASİTƏLƏRİN VƏ XİDMƏTLƏRİN NÖVLƏRİ

(a) Vasitə/xidmətlərin xüsusiyyətləri:

_____________________________________________________________________

_____________________________________________________________________

(b) Vasitə/xidmətlərin növləri:

(c) Vasitələrin yeri:

(d) Sorğu edilən vasitə/xidmətlərin təsfilatlı təsviri:

(e) Xidmətin/vasitənin təqdim edilməsi üçün gözlənilən tarix:

(f) Sifarişçi eyni növ xidmətləri aşağıdaki üçüncü şəxslərə təqdim edəcək.

4. ÖDƏMƏ QABİLİYYƏTİ

(a) Son maliyyə ilinin kənar audit hesabatı;

(b) Azərbaycan Respublikasının müvafiq qurumundan maliyyə öhdəliklərini lazımınca yerinə yetirməsini təsdiq edən arayış və/və ya digər sənədlər.

5. STANDARTLARIN VƏ ŞƏRTLƏRİN QƏBULU VƏ YA İMTİNASI

* Birini seçməyiniz xahiş olunur:

[ ]Biz Aztelekom MMC-nin Qoşulma Təklifinin şərtlərinə uyğun olaraq telekommunikasiya vasitələrinin və/və ya xidmətlərinin təchiz edilməsini qəbul edirik.

[ ] Biz Qoşulma Təklifinin şərtləri ilə bağlı əlavə danışıqlar aparılmasını istəyirik.

“__” ______ 20__-ci il

Hörmətlə,

-----------------------------------------

Ad:

Vəzifə:

Möhür yeri

**D.2. Sorğunun qəbulu (Xidmətlərə Qoşulma Təklifiüzrə)**

FORMA F.2

SORĞUNUN QƏBUL EDİLMƏSİ (Təklif əsasında)

Bildiririk ki, Sizin [__________] tarixli Sorğunuzda qeyd olunan telekommunikasiya xidmət və vasitələrinin **Xidmətlərə** Qoşulma Təklifinin şərtləri əsasında təmin edilməsinə etiraz etmirik.

“__” _______ 20__-ci il

Hörmətlə,__________________

**D.3 Sorğunun Qəbulu (Danışıqlar üzrə)**

FORMA F.3.

SORĞUNUN QƏBUL EDİLMƏSİ (DANIŞIQLAR ÜZRƏ)

Bildiririk ki, Sizin [__________] tarixli Sorğunuzda qeyd olunan telekommunikasiya xidmət və vasitələrinin **Xidmətlərə Qoşulma** Təklifində nəzərdə tutulanlardan fərqli şərtlərlə təmin edilməsinin müzakirə edilməsinə etiraz etmirik.

TARİX VAXT VƏ YERİ.

Danışıqlar aparılması ilə bağlı təşkil olunacaq ilk görüşə dair məlumatlar:

(a) Tarix: ______________________

(b) Vaxt: ______________________

(c) Məkan: ____________________

“__” _______ 20__-ci il

Hörmətlə, ______________

Aztelekom ____________________

**D.4 Əlavə məlumat üçün sorğu forması**

FORMA F.4

ƏLAVƏ MƏLUMAT FORMASI ÜÇÜN SORĞU

Sizin [_________ ] tarixli Sorğunuza baxılması ilə əlaqədar aşağıdakı zəruri məlumatların təqdim edilməsi xahiş olunur:

Tələb olunan məlumatların təsviri

“__” _______ 20__-ci il

Hörmətlə,

_________________________________

Aztelekom MMC

**D.5 Sorğunun rədd edilməsi haqqında bildiriş**

FORMA F.5

SORĞUNUN RƏDD EDİLMƏSİ BİLDİRİŞİ

Sizə təəssüflə bildiririk ki, [___] tarixdə daxil olmuş _____ nömrəli Sorğunuzun təmin olunmasından aşağıdakı əsaslarla imtina edilmişdir.
İmtina üçün əsaslar

“__” _______ 20__-ci il

Hörmətlə,

Aztelekom MMC

**ƏLAVƏ E: Xidmətlərin siyahısı**

“Operator”un **Xidmətlərə Qoşulma** Təklifi aşağıdakı xidmətləri əhatə edir:

1. Lokal İcarəlik Xətt Xidmətinə giriş (DLLS-ə giriş)
2. Ethernet Port xidmətlərinə giriş
3. Avadanlığın yerləşdirilməsi

**ƏLAVƏ F: Xidmət – DLLS-ə giriş**

F.1 Xidmətin adı və xarakteri

F.1.1 Lokal İcarəlik Xətt Xidməti (DLLS) “Sifarişçi”yə “Operator” tərəfindən telekommunikasiya transmissiya xidmətlərinin təqdim edilməsini ehtiva edir.

F.2. Xidmətin texniki təsviri

Lokal İcarəlik Xətt Xidməti (DLLS) telekommunikasiya transmissiya xidmətidir və aşağıdakılardan ibarətdir:

(a) Ötürmə Xidməti aşağıda sadalananlar arasında kommunikasiyaların daşınması üçün avadanlıq və/və ya xidmətdir:

a.1 “Operator”un iki yerləşmə məkanı (nöqtə) arasında;

a.2 “Operator”un yerləşmə məkanı (nöqtə) ilə “Sifarişçi”nin mövcud olduğu nöqtə arasında; yaxud

a.3 “Sifarişçi”nin iki yerləşmə məkanı (nöqtə) arasında.

b) xidmət üzrə tariflər “Operator” və “Sifarişçi” arasında razılaşdırıla bilər.

c) Şəbəkə interfeysləri “Operator” və “Sifarişçi” arasında razılaşdırıla bilən istənilən texnologiyadan istifadə edə bilər.

d) Transmissiya xidmətini təmin etmək üçün istifadə olunan texnologiya DWDM və/yaxud Metro-Ethernet texnologiyasında və ya “Operator” tərəfindən müəyyən edilə bilən digər texnologiyada olacaq.

F.2.1. “Operator” bu Təklifə uyğun olaraq “Sifarişçi” tərəfindən tələb olunan DLLS xidmətinin növünü təmin edəcək.

F.2.2. DLLS xidmətinin və aidiyyəti olan vasitələrə texniki məqsədlə fiziki müdaxilənin təmin edilməsinə daxildir:

a) “Operator”un qayda və təlimatlarına uyğun olaraq”Sifarişçi”nin işçiləri, nümayəndələri və subpodradçı üçün girişin təmin edilməsi.

b) Üç həll ssenarisindən birinə uyğun olaraq DLLS-nin təminatı:

DLLS-nin təmin edilməsi üçün 3 (üç) ssenari aşağıdakılardır:

1. DLLS Dual-Ended: DLLS Dual-Ended, “Operator”un avadanlıqların yerləşmə məkanında iki nöqtə arasında transmissiyanın təmin edilməsi xidmətidir. Dual-Ended DLLS "Sifarişçi"nin şəbəkəsindən "Operator"un şəbəkəsinə, daha sonra "Operator"un avadanlığın yerləşdiyi məkan vasitəsilə "Sifariş"çinin şəbəkəsinə təhvil verilir. “Operator”un “Sifarişçi”yə Dual-Ended DLLS təmin etməsi şərtləri aşağıdakılardır:

a) Bu Təklifin DLLS Xidməti çərçivəsində DLLS xidmətləri üçün “Operator”un “Sifarişçi”dən sifarişi qəbul etməsi; və

b) Bu Təklifin avadanlığın yerləşdirilməsi xidməti üçün “Operator”un “Sifarişçi”dən sifarişi qəbul etməsi.




2. DLLS Single-Ended: DLLS Single-Ended, bir nöqtəsi “Operator”un avadanlığının yerləşmə məkanında, digər nöqtəsi “Sifarişçi”nin yerləşmə məkanında olan transmissiyanın təmin edilməsi xidmətidir. „Sifarişçi“nin qoşulma nöqtəsi üçüncü tərəfə məxsus avadanlıqların yerləşmə məkanında ola bilər.

“Operator”un “Sifarişçi” üçün DLLS Single-Ended təminatı aşağıdakılarla şərtlənir:

(a) Bu Təklifin DLLS Xidməti çərçivəsində DLLS xidmətləri üçün “Operator”un “Sifarişçi”dən sifarişi qəbul etməsi; və

(b) Bu Təklifin avadanlıqların yerləşdirmə çərçivəsində birgə yerləşdirmə xidmətləri üçün “Operator”un “Sifarişçi”dən sifarişi qəbul etməsi.




3. DLLS Third Party-Ended: Transmissiyanın üçüncü tərəfin avadanlıqların yerləşmə məkanında sonlanmasıdır.

“Operator”un transmissiya platforması.

“Operator” ötürmə platforması daxilində əsas və ehtiyat xətləri vasitəsilə (Qorunan) transmissiya xidmətini təqdim edir. Əsas xətt zədələnərsə, xidmət avtomatik olaraq ehtiyat xəttin üzərindən təmin edilir.




“Operator” aşağıdakı tutumlarda və giriş portları ilə “Operator”un əsas şəbəkə saytları arasında ehtiyata alınmış transmissiya xidmətini təqdim edir. Xidmətin təminatı Ethernet Portların mövcudluğundan və sayından asılı ola bilər.

| **Tutum** | **Ethernet Port** |
|---|---|
| DWDM 10GBPS | Ethernet və ya digər sorğu və mövcudluq əsasında |
| DWDM 100GBPS | Ethernet və ya digər sorğu və mövcudluq əsasında |

F2.3 “Operator” şəbəkə saytlarından kənarda ehtiyat xətti olmayan (Qorunmayan) transmissiya xidməti təklif edir və bu xidmət alternativ olaraq “Sifarişçi”nin sorğusu və “Operator” ilə “Sifarişçi” arasında razılaşma ilə ehtiyat xətləri ilə təmin edilə bilər.

F.3 Xidmət üçün əməliyyat prosedurları

**Xüsusi şərtlər.**

F.3.1 “Sifarişçi”yə aid olan texniki vasitələrdə proqram təminatında, elektrik qida qurğularında olan çatışmazlıqlar səbəbindən baş verən gecikmələrə, məlumatların itməsinə, rabitədə fasilələrə görə “Operator” heç bir məsuliyyət daşımır.

F.3.2. “Son avadanlıq” “Operator”la “Sifarişçi” arasındakı yazılı qaydada müəyyən edilmiş razılıq əsasında təmin edilir.

F.3.3 „Sifarişçi”nin subpodratçısı ilə əməkdaşlığı:

“Sifarişçi” onun şəbəkəsinin hər hansı hissəsini idarə edən hər hansı subpodratçının “Operator” ilə əməkdaşlıq etməsini təmin etməlidir. Təklifə əsasən „Sifarişçi“ “Operator” qarşısında öhdəliklərindən azad edilməyəcək və öz subpodratçılarının hər hansı hərəkət və ya hərəkətsizliyinə görə “Operator” qarşısında tam məsuliyyət daşıyacaq. “Operator” „Sifarişçi“nin subpodratçısı ilə əməkdaşlıqdan irəli gələn bu Təklif üzrə öhdəliklərinin yerinə yetirilməməsi və ya gecikməsinə görə məsuliyyət daşımır.

F.3.4 Lazımi yerin təmin edilməsi: DLLS Single-Ended və ya DLLS Third Party-Ended növlərində transmissiya xidməti təmin edilərkən “Sifarişçi” İstifadəçi avadanlığı quraşdırmaq üçün özünün və üçüncü tərəfin avadanlıqların yerləşmə məkanında “Operator”a kifayət qədər yer ayrılmasını təmin etməlidir. Üçüncü tərəfin məkanı ilə “Operator”un şəbəkəsi arasında əlaqəni həyata keçirmək üçün lazım olan tam infrastrukturun quraşdırılmasını təmin etməlidir. “Sifarişçi” xidmət göstərilən müddət ərzində üçüncü tərəfin məkanından istifadəyə görə razılığın alınmasını təmin etməlidir.

F.3.5 Üçüncü tərəfə məxsus məkanda zəruri enerji və fiziki şəraitin təmin edilməsi:

a) Enerji şəraiti: DLLS Single-Ended və ya üçüncü tərəf DLLS-də və “Operator” avadanlığı birbaşa üçüncü tərəfin məkanında quraşdırılacaqsa, “Sifarişçi” tələb olunan enerji mənbəyinə qoşulmanı təmin etməlidir. “Operator”un tələbləri ilə „Sifarişçi“ avadanlığın düzgün işləməsini təmin edir. Bundan əlavə, “Sifarişçi” “Operator”un tələblərinə uyğun olaraq torpaqlamaya qoşulmanı təmin etməlidir.

b) Fiziki mühit: DLLS Single-Ended və ya DLLS Third Party-Ended növlərində transmissiya xidmətlərinin üçüncü şəxsə məxsus məkanda avadanlıqların quraşdırılaraq təminatı zamanı “Sifarişçi” “Operator”un tələblərinə cavab verən fiziki mühiti təmin etməlidir: Elektromaqnit uyğunluğu mühiti, temperatur, nisbi rütubət, ventilyasiya sistemi və təhlükəsizlik qaydaları ilə bağlı tələblər.

F.3.6 “Sifarişçi” xidmətin növünü dəyişdirmək istədikdə bu barədə „Operator“a 30 (otuz) təqvim günü öncədən rəsmi məlumat göndərməlidir;

F3.7. “Operator” planlaşdırılan mühəndis işləri və ya profilaktik işlər təklif olunan iş günləri “Sifarişçi”yə 3 (üç) iş günü qabaqcadan məlumat vermək şərti apara bilər.

**F.4. Xüsusi kommersiya şərtləri**

F.4.1 Əlavə C-də qiymətlər və xərclər təsvir edilmişdir.

F.4.2 Əlavə xidmət xüsusiyyətlərinin, ixtisaslaşdırılmış billinq sistemlərinin və/və ya şəbəkə interfeyslərinin, qeyri-standart qoşulmanın və əlaqəli konfiqurasiyanın, inteqrasiyanın və sınaqların qiyməti dərc edilmiş tariflərə daxil edilmir. Bu cür hallar “Operator”un təsdiqi əsasında qarşılıqlı razılaşdırılmış vaxt qrafikləri və ödənişlər əsasında ayrı-ayrılıqda qiymətləndiriləcək.

| | |
|---|---|
| “Operator”un adından imzaladı | “Sifariçşi”nin adından imzaladı |
| “AZTELEKOM” MMC | ______________________________ |
| Adı | Adı |
| Vəzifəsi | Vəzifəsi |
| Tarix | Tarix |

AZTELEKOM

**ƏLAVƏ G: Ethernet Port – Xidməti**

G.1 Xidmətin adı və xarakteri

G.1.1 Ethernet Port xidməti (Port) , MPLS şəbəkəsi üzərindən təmin edilmiş və "Sifarişçi"nin istifadəsi üçün "Operator"un avadanlıq portunda çatdırılan iki (və daha çox) razılaşdırılmış məkan arasında "Operator" tərəfindən "Sifarişçi"nin trafiklə təmin edilməsini ehtiva edir.

G.2 Xidmətin texniki təsviri

"Operator"un Ethernet Port xidmətinin təmin etmə öhdəliyi onun fiziki yerləşdirdiyi yerdə ("Operatorun"qoşulma məkanında) son avadanlıq ilə şərtlənir.

G.2.1 "Operator" tərəfindən təqdim edilən Ethernet Portlar "Operator"un müxtəlif şəbəkə avadanlıqlarında mövcud olan iki və ya çoxnöqtəli port arasında müəyyən telekommunikasiya məlumatların (dataların) (rəqəmsal formada olan və İnternet Protokollarına uyğun olan) mübadiləsi üçün MPLS virtual dövrəsinin təmin edilməsi xidmətididir:

a) "Sifarişçi"yə məxsus hər bir port "Operator"un Şəbəkəsinə qoşulur; və

b) Çoxnöqtəli bağlantı (topologiya) verildiyi zaman "Sifarişçi"nin, "Operator" şəbəkəsinə qoşulmuş portlarından biri aqreqator funksiyasını daşıya bilər.

G.2.2 "Operator", bu Təklifə uyğun olaraq "Sifarişçi" tərəfindən tələb olunan Ethernet Port xidmətlərini təmin edəcək. "Operator" şəbəkə tutumu və Ethernet Portların mövcudluğundan asılı olaraq Ethernet Port xidmətlərinin Texniki Spesifikasiyalara uyğun olmasını təmin etməlidir.

G.2.3 Ethernet Port xidmətlərinin təmin edilməsi üçün obyektlərə fiziki giriş icazəsinə aşağıdakılar daxildir:

a) bu Qoşulma Təklifi ilə müəyyən edilmiş avadanlığın yerləşdirilməsi şərtləri və qiymətləri əsasında avadanlığın yerləşdirilməsi xidmətləri ilə bağlı icazə

b) Operatorun giriş icazəsi (Əlavə H qeyd olunan **Avadanlığın yerləşdirilməsi** xidmətinin olduğu halda) tələblərinə uyğun olaraq Sifarişçi"nin işçilərinin və subpodratçılarının "Operator"un şəbəkə qurğularına daxil olması üçün icazə;

"Operator" aşağıdakı tutumlarda giriş portları ilə "Operator"un əsas şəbəkə saytları arasında Ethernet Port xidmətini təqdim edir. Ethernet Port xidmətinin təmin edilməsi onun mövcudluqdan və texniki imkanlarından aslıdır.

| Ethernet Port: MPLS Bandwidth | İnterfeys |
|---|---|
| 10 Mbps | Ethernet yaxud digər*<br>(*:İstək əsasında və mövcudluqdan asılı olaraq) |
| 100 Mbps | Ethernet və yaxud digər*<br>(*:İstək əsasında və tabedir |
| 1 Gbps | Ethernet yaxud digər* |
| 10 Gbps | Ethernet or other*<br>(*:İstək əsasında və tabedir |
| 100 Gbps | Ethernet or other*<br>(İstək əsasında və tabedir v) |

G.3 Xidmət üçün əməliyyat prosedurları

Xüsusi şərtlər

G.3.1 “Operator” proqram təminatı, enerji təchizatı və ya digər “Sifarişçi”yə aid texniki avadanlıq və əlaqəli elementlərdəki çatışmazlıqlar səbəbindən hər hansı gecikmələrə, məlumat itkisinə, rabitə kəsilməsinə görə məsuliyyət daşımır.

G.3.2 “Sifarişçi”nin subpodratçısı ilə əməkdaşlıq: “Sifarişçi” onun Şəbəkəsinin hər hansı hissəsini idarə edən hər hansı subpodratçının “Operator” ilə əməkdaşlıq etməsini təmin etməlidir. “Sifarişçi” razılaşır ki, o, bu Təklifə əsasən “Operator” qarşısında öhdəliklərindən azad edilməyəcək və “Sifarişçi” öz subpodratçılarının hər hansı hərəkət və ya hərəkətsizliyinə görə “Operator” qarşısında tam məsuliyyət daşıyacaq. “Operator” subpodratçı ilə əməkdaşlıqdan irəli gələn bu Qoşulma Təklifi üzrə öhdəliklərinin yerinə yetirilməməsi və ya gecikməsinə görə məsuliyyət daşımır.

G.3.3 “Sifarişçi” “Operator”un yazılı razılığı olmadan aldığı xidmət üzrə eyni növ xidmətləri üçüncü şəxslərə təqdim edə bilməz. Bu öhdəliyin pozulması aşkar edildikdə, “Operator” əvvəlcədən xəbərdarlıq etmədən bu Təklifə xitam vermək və “Sifarişçi”dən bu tələbin pozulması nəticəsində birbaşa dəymiş zərərin tam məbləğini tələb etmək hüququna malikdir. “Sifarişçi” bu sorğunun verildiyi tarixdən etibarən 15 (on beş) gün ərzində yerinə yetirməlidir.

G.3.4 “Sifarişçi” xidməti dəyişdirmək istədikdə bu barədə Operatora 30 (otuz) təqvim gün öncədən rəsmi məlumat göndərməlidir;

G.3.5 Planlaşdırılmış mühəndis işləri Profilaktik işləri 3(üç) iş gün əvvəldən “Sifarişçi”yə bildirmək şərti ilə aparıla bilər.

G.3.6 **Ethernet Port** xidmətinin və aidiyyəti olan vasitələrə texniki məqsədlə fiziki müdaxilənin təmin edilməsinə daxildir:

a) “Operator”un qayda və təlimatlarına uyğun olaraq”Sifarişçi”nin işçiləri, nümayəndələri və subpodradçı üçün girişin təmin edilməsi.

b) Üç həll ssenarisindən birinə uyğun olaraq **Ethernet Port**-nin təminatı:

**Ethernet Port** -nin təmin edilməsi üçün üç ssenari aşağıdakılardır:

1. **Ethernet Port** Dual-Ended: **Ethernet Port** Dual-Ended, “Operator”un avadanlıqların yerləşmə məkanında iki nöqtə arasında transmissiyanın təmin edilməsi xidmətidir. Dual-Ended **Ethernet Port** "Sifarişçi"nin şəbəkəsindən "Operator"un şəbəkəsinə, daha sonra "Operator"un avadanlığın yerləşdiyi məkan vasitəsilə "Sifariş"çinin şəbəkəsinə təhvil verilir. “Operator”un “Sifarişçi”yə Dual-Ended **Ethernet Port** təmin etməsi şərtləri aşağıdakılardır:

a) Bu Təklifin **Ethernet Port** Xidməti çərçivəsində **Ethernet Port** xidmətləri üçün “Operator”un “Sifarişçi”dən sifarişi qəbul etməsi;

2. **Ethernet Port** Single-Ended: **Ethernet Port** Single-Ended, bir nöqtəsi “Operator”un avadanlığının yerləşmə məkanında, digər nöqtəsi “Sifarişçi”nin yerləşmə məkanında olan transmissiyanın təmin edilməsi xidmətidir. „Sifarişçi“nin qoşulma nöqtəsi üçüncü tərəfə məxsus avadanlıqların yerləşmə məkanında ola bilər.

“Operator”un “Sifarişçi” üçün **Ethernet Port** Single-Ended təminatı aşağıdakılarla şərtlənir:

a) Bu Təklifin **Ethernet Port** Xidməti çərçivəsində DLLS xidmətləri üçün “Operator”un “Sifarişçi”dən sifarişi qəbul etməsi; və

3. **Ethernet Port** Third Party-Ended: Transmissiyanın üçüncü tərəfin avadanlıqların yerləşmə məkanında sonlanmasıdır.

G.4 Xüsusi kommersiya şərtləri
G.4.1 ƏLAVƏ C-də qiymətlər və xərclər təsvir edilmişdir.

G.4.2 Əlavə xidmət xüsusiyyətlərinin, ixtisaslaşdırılmış billinq sistemlərinin və/və ya şəbəkə interfeyslərinin, qeyri-standart qoşulmanın və əlaqəli konfiqurasiyanın, inteqrasiyanın və sınaqların qiyməti dərc edilmiş tariflərə daxil edilmir. Bu cür hallar, “Operator”un təsdiqi əsasında qarşılıqlı razılaşdırılmış vaxt qrafikləri və ödənişlər əsasında ayrı-ayrılıqda qiymətləndiriləcək.

G.4.3 “Operator” tərəfindən xidmət göstərilməsi qabaqcadan müəyyən edilməsi mümkün olmayan aşağıdakı hadisələrə görə qeyri-mümkün hesab edilə bilər, bu hadisələrin baş verməsindən qaynaqlanan nasazlığa görə “Operator” məsuliyyət daşımır və həmin nasazlıq xidmətin qüsurlu və aşağı keyfiyyətdə olması kimi qiymətləndirilə bilməz:
a) Qəza və təmir işlərinin yerinə yetirilməsi, bir şərtlə ki, 3 saatdan çox dayanma olarsa həmin işlərin görülməsi barədə “Sifarişçi”yə bildiriş verildikdə və həmin işlər bildirişdə qeyd olunan müddət ərzində yerinə yetirildikdə;
b)Qəbul və istismar sınaqları səbəbindən Xidmət göstərilməsində fasilələr yarandıqda;
c)“Sifarişçi”nin razılığı ilə Xidmətin dayandırılması və ya təxirə salınması səbəbindən xidmət göstərilməsində fasilələr olduqda;
d)“Sifarişçi”nin təqsirli əməlləri nəticəsində xidmət göstərilməsində fasilələr yarandıqda;
e)“Sifarişçi”nin binasında enerji təchizatı olmadığına görə Xidmət göstərilməsində fasilələr və Xidmətin bərpa edilməsində gecikmələr olduqda;
f) Fors-major səbəbindən baş vermiş qüsur olduqda;
g) “Operator”, ondan aslı olmayan səbəblərə görə - avadanlığın yerləşdiyi zirzəmi və digər yerlərin su ilə dolması, yanğının baş verməsi və digər xarici təsirlərə məruz qalması, elektrik təchizatının kəsilməsi və ya qüsurların olması və digər buna bənzər halların baş verməsi nəticəsində xidmət səviyyəsi aşağı düşdükdə və ya xidmət dayandırıldıqda.
h)“Operator” şəbəkə və rabitə avadanlığı üzərində planlı texniki xidmət, müasirləşdirmə və ya təkmilləşdirmə işlərini yerinə yetirə bilər. Bu işlər planlı təmir işləri kimi tərif olunur və Xidmətin göstərilməsində fasilələrə səbəb ola bilər. Bu halda Xidmət kəsintiləri qüsur və ya mümkünsüzlük hesab olunmayacaq və “Sifarişçi”nin ödəniş məbləğinin yenidən hesablanmasına nail olmaq məqsədilə iddia qaldırmasına əsas verməyəcək.

G.4.4 “Operator” İnternet şəbəkəsi ilə istər açıq və ya gizli şəkildə təqdim olunan istənilən mallara, xidmətlərə, məlumata görə heç bir zəmanət vermir və məsuliyyət daşımır.

G.4.5 “Operator” internet şəbəkəsi ilə yayımlanan ümumi informasiya axınında “Sifarişçi” üçün xoşagəlməz olan materiallara, həmçinin öz növbəsində “Sifarişçi”yə şəxsən toxuna biləcək və ya onunla bağlı açıq qeyri-etik xarakterli və ya təhqiredici tərkibli məlumatlara nəzarət etmir və buna görə məsuliyyət daşımır.

G.4.6 “Sifarişçi” giriş üçün öz parametlərinin təhlükəsizliyinə və onun giriş kanalından icazəsiz istifadə nəticəsində dəymiş zərərə görə tam məsuliyyət daşıyır. “Operator” “Sifarişçi”nin girişindən üçüncü şəxslər tərəfindən icazəsiz olaraq istifadə nəticəsində dəymiş ziyana görə, o cümlədən, üçüncü şəxslər tərəfindən icazəsiz istifadə ilə “Sifarişçi”nin şəxsi hesabına və onun səhifəsindən şəxsi statistik məlumatlara girməsinə görə məsuliyyət daşımır və kompensasiya vermir.

G.4.7 “Operator”un məkanında quraşdırılmış “Sifarişçi”yə məxsus avadanlıqlara “Operator”un işçiləri və subpodratçıları tərəfindən “Sifarişçi” ilə qarşılıqlı Təklif əsasında istənilən vaxt və məhdudiyyət qoyulmadan baxışın keçirilməsi üçün şərait yaratmalıdır.

G.4.8 “Operator”la razılaşdırmadan “Sifarişçi” yə quraşdırılmış avadanlıqlarda rekonstruksiya işlərinin aparılması, istifadə sahələrində gələcəkdə avadanlığa zərər vuran ehtimalı olan təmir tikinti işlərin aparılması qadağan edilir.

G.4.9 “Sifarişçi” son mildə, texniki vasitələrdə proqram təminatında, elektrik qida qurğularında olan çatışmazlıqlar səbəbindən baş verən gecikmələrə, məlumatların itməsinə, rabitədə fasilələrə görə “Operator”un heç bir məsuliyyət daşımadığını qəbul edir.

| “Operator”un adından imzaladı | “Sifariçşi”nin adından imzaladı |
|---|---|
| AZTELEKOM MMC | ____________________ |
| Adı | Adı |
| Vəzifəsi | Vəzifəsi |
| Tarix | Tarix |

**ƏLAVƏ H: Xidmət – Avadanlığın yerləşdirilməsi**

H.1 Xidmətin adı və xarakteri

H.1.1 Avadanlığın yerləşdirilməsi xidməti "Sifarişçi"nin şəbəkə elementlərini və komponentlərini yerləşdirmək üçün "Operator"un binalarında və ya obyektlərində xüsusi texniki şərait çərçivəsində yerin (şəraiti) təmin edilməsini ehtiva edir.

H.2 Xidmətin texniki təsviri

H.2.1 "Operator" tərəfindən təqdim edilən avadanlığın yerləşdirilməsi xidmətləri "Sifarişçi"nin şəbəkəyə girişinin təmin edilməsi üçün zəruri olan avadanlığın "Operator"a məxsus məkanda (bina, tikili və digər yerdə) quraşdırılmasını və saxlanılmasını (qorunması, elektrik enerjisi ilə təmin edilməsi) ehtiva edir. Avadanlığın yerləşdirilməsi xidmətinə bu məqsədlə ayrılmış fiziki məkan, elektrik enerjisi, ətraf mühit xidmətləri (istilik, işıq, ventilyasiya və kondisioner kimi), təhlükəsizlik, sahəyə texniki qulluq və "Sifarişçi"nin personalı üçün giriş daxildir.

H.2.2 Avadanlığın yerləşdirilməsi xidmətləri üçün ümumi ilkin şərtlər

2.2.1 "Operator" aşağıdakı hallarda "Sifarişçi"nin şəbəkəsinə məxsus avadanlıqların yerləşdirilməsini təmin etməyə borcludur:

a. "Operator"

I. Təyin olunmuş məkanlar onun mülkiyyətindədir; və

II. Mövcud qanunvericiliyə və texniki imkanlara uyğun olaraq telekommunikasiya avadanlıqlarının yerləşdirilməsi üçün həmin məkanları "Sifarişçi"yə təqdim edə bilər.

b. "Telekommunikasiya haqqında" Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq "Sifarişçi"yə məxsus telekommunikasiya avadanlığının quraşdırılması və idarə edilməsi üçün müvafiq icazələrə və tələb olunduqda müvafiq orqandan digər təsdiqlərə malikdir;

c. "Operator"un mövcud istifadə tələbləri və gələcək genişləndirmə planı nəzərə alındıqdan sonra məkanda avadanlığın quraşdırılması üçün kifayət qədər yer olarsa; və

d."Sifarişçi"nin tələb etdiyi məkanda avadanlığın yerləşdirilməsi texniki cəhətdən mümkündür.

H.2.3 "Operator" tərəfindən təmin edilən avadanlığın yerləşdirilməsi xidmətləri "Sifarişçi" tərəfindən tələb olunan sahəyə uyğun olaraq təklif olunur. Avadanlığın yerləşdirilməsi sahəsi mövcudluqdan asılı olaraq məhdudlaşdırıla bilər.

| Birgə Yerləşdirmə | Məkan vahidi |
|---|---|
| 1 $m^3$ | Kubmetr [ $m^3$ ] |
| 1 >$m^3$ | Kubmetr [ $m^3$ ] |

H.3 Xidmət üçün əməliyyat prosedurları

H.3.1 "Sifarişçi" aşağıdakı əməliyyat prosedurlarına və metodlarına əməl etməlidir:

I. müvafiq Obyektlərin və ya Xidmətlərin planlaşdırılması və təmin edilməsi;

II. müvafiq Obyektlərin və ya Xidmətlərin idarə edilməsi, o cümlədən:

(a) Şəbəkənin nasazlığı, sıxlığı və tıxanması halında şəbəkə əməliyyatları; və

(b) Operatorların Şəbəkələrinin zərərdən adekvat şəkildə qorunmasının təmin edilməsi;

III “Operator” tərəfindən “Sifarişçi”yə Obyektlərin və ya Xidmətlərin təqdim edilməsi ilə bağlı sınaq prosedurları və digər texniki və əməliyyat məsələləri;

IV Müştəri əməliyyatlarının idarə edilməsi; və

V. Operatorların razı olacağı digər məsələlər.

H.3.2 Əməliyyat prosedurları ilə bu Təklifin şərtləri arasında hər hansı uyğunsuzluq olduqda, bu Təklifin şərtləri üstünlük təşkil edəcəkdir.

**“Operator”un hüquq və öhdəlikləri**

H.3.3 “Operator” avadanlıqların yerləşdirilməsi xidmətlərini təklif edir, o cümlədən personalın və avadanlıqların “girişinə nəzarət”, “Birgə Yerləşdirmə” xidmətinə fiziki “Giriş nəzarəti”, obyektlərə girişin təhlükəsiz şəkildə idarə edilməsinə şərait yaradır. “Operator” obyektləri daxilində mövcud yerdən istifadə, İcarəyə götürülmüş obyektlərin və “Sifarişçi”nin şirkətinin öz avadanlıqlarının təhlükəsiz və dayanıqlı fəaliyyətinin təmin edir.

H.3.4 “Operator” ilə razılaşdırılmış qaydada “Sifarişçi”nin avadanlığının texniki baxışı üçün bina obyektlərinə daxil olmasına icazə verilə bilər.

H.3.5 Təklif üzrə üzərinə götürdüyü vəzifə və öhdəliklərin, habelə “Sifarişçi”yə məxsus olan və ya “Sifarişçi”nin icarəyə götürdüyü cihaz və avadanlığın üçüncü tərəfə həvalə edilməsinin qadağan edilməsinə nəzarət təmin edilir.

H.3.6 “Operator”un təlimatlarına və qaydalarına uyğun olaraq “Sifarişçi”nin telekommunikasiya alətləri və avadanlıqlarının quraşdırılmasına nəzarətin təmin edilməsi.

"Sifarişçi"nin hüquq və vəzifələri.

H.3.7 “Operator” ilə razılaşdırılmış qaydada öz avadanlığının texniki baxışı üçün “Operator”un binalarına daxil olmaq üçün icazənin alınması.

H.3.8 Avadanlığın yerləşdirilməsi xidmətləri üzrə “Operator”un imkanları və/yaxud xidmətləri Təklif üzrə götürülmüş vəzifə və öhdəliklər baxımından “Operator”un məsuliyyəti altındadır və “Sifarişçi”nin qabaqcadan razılığı olmadan heç bir şəkildə üçüncü tərəfə həvalə edilə bilməz.

H.3.9 “Sifarişçi” belə zərər iddiasını təsdiq edən sübutlara əsaslanaraq, "Operator”un xidmətlərinin texniki nasazlığı səbəbindən öz avadanlığına dəymiş ziyanı tələb etmək hüququna malikdir.

H.4 Xüsusi kommersiya şərtləri

H.4.1 Qiymətlər və xərclər ƏLAVƏ C-də təsvir edilmişdir.

H.4.2 Əlavə xidmət xüsusiyyətlərinin, ixtisaslaşdırılmış billinq sistemlərinin və/və ya şəbəkə interfeyslərinin, qeyri-standart qoşulmanın və əlaqəli konfiqurasiyanın, inteqrasiyanın və sınaqların qiyməti dərc edilmiş tariflərə daxil edilmir. Bu cür işlərə “Operator”un təsdiqi əsasında qarşılıqlı razılaşdırılmış vaxt qrafikləri və ödənişlər əsasında ayrı-ayrılıqda baxılacaq.

Bu ƏLAVƏdəki şərtlərlə “Operator” tərəfindən **Avadanlığın yerləşdirilməsi** xidmətlərinin göstərilməsi ilə bağlı Tərəflər razılığa gəldilər.

| | |
|---|---|
| “Operator”un adından imzaladı | “Sifarişçi”nin adından imzaladı |
| AZTELEKOM MMC | ________________________________ |
| Adı | Adı |
| Vəzifəsi | Vəzifəsi |
| Tarix | Tarix |

-- Sənədin sonu ---